# HEYDƏR ƏLİYEVİN KİTABXANALARIN ELMİ-TƏDQİQAT MATERİALLARI İLƏ ZƏNGİNLƏŞMƏSİNDƏ ROLU: AZƏRBAYCANLILARIN SOYQIRIMI PROBLEMİ İSTİQAMƏTİ ÜZRƏ

***Nigar İmran qızı Camalova***

*AMEA A.A.Bakıxanov ad.*
*Tarix və Etnologiya İnstitutu, böyük elmi işçi*
*n.abushova@gmail.com*

***Açar sözlər:*** *Heydər Əliyev, kitabxana, elmi əsər, soyqırımı*
***Ключевые слова:*** *Гейдар Алиев, библиотека, научная работа, геноцид*
***Keywords:*** *Heydar Aliyev, library, scientific work, genocide*

**Xülasə:** Tədqiqatlar göstərir ki, Heydər Əliyevin tarixi araşdırmalara dair tapşırıq və tövsiyələri, “Azərbaycanlıların soyqırımı haqqında” fərmanı, "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanının icrasının ardıcıl və mütəşəkkil şəkildə həyata keçirilməsi ilə bağlı tədbirlər planı haqqında” sərəncamı, 1998-ci il 31 mart tarixini Azərbaycanlıların soyqırımı günü elan etməsi Azərbaycan və dünya kitabxanalarının, internetin və elektron məkanın erməni siyasi dairələrinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı və etnik təmizləmə siyasəti ilə bağlı fundamental elmi tədqiqat işləri, konfrans materialları və elmi məqalə və tezislərin yer aldığı elmi jurnallarla zənginləşməsinə təkan vermişdir.

**Резюме:** Исследования показывают, что указания и рекомендации Гейдара Алиева по проведению исторических исследований, Указ «О геноциде азербайджанцев», Распоряжение «О плане мероприятий по последовательному и организованному выполнению указа «О геноциде азербайджанцев» от 26 марта 1998 года», объявление 31 марта 1998 года Днем геноцида азербайджанцев способствовали пополнению азербайджанских и мировых библиотек, интернета и электронного пространства фундаментальными научными исследованиями, материалами конференций и научными журналами, содержащими научные статьи и тезисы о политике геноцида и этнической чистки, проводимой армянскими политическими кругами против азербайджанского народа.

**Summary:** Studies demonstrate that Heydar Aliyev's instructions and recommendations on historical research, the decree "On the Genocide of Azerbaijanis", the decree "On the Plan of Measures for the Consistent and Organized Implementation of the Decree of the President of the Republic of Azerbaijan "On the Genocide of Azerbaijanis" dated March 26, 1998", and the declaration of March 31 as the Day of the Genocide of Azerbaijanis have given impetus to the enrichment of Azerbaijani and world libraries, the internet and electronic space with fundamental scientific research works, conference materials and scientific journals containing scientific articles and theses related to the genocide and ethnic cleansing policy committed by Armenian political circles against the Azerbaijani people.

Azərbaycan tarixinin aktual problemlərindən biri də erməni siyasi dairələri tərəfindən tarixən azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı, etnik təmizləmə siyasəti və bu siyasətin müasir dövrdə Cənubi Qafqaz regionunda dövlətlərarası və xalqlararası əlaqələrə mənfi təsiri məsələləridir. Hələ 1993-cü və 1997-ci illərdə Heydər Əliyev Elmlər Akademiyası ziyalıları ilə görüşəndə Azərbaycanın XIX-XX əsrlər tarixinin yenidən araşdırılmasının zəruriliyi fikrini irəli sürmüşdü [8, s. 66]. Bu əsrlər Cənubi Qafqaza ermənilərin kütləvi köçürülməsi, ermənilərin Cənubi Qafqazın yerli əhalisi olan azərbaycanlıları sıxışdırmağa başladığı, soyqırımı və etnik təmizləmələr həyata keçirdiyi dövrdür. Məhz Heydər Əliyevin tarixçilər qarşısında qoyduğu yeni tapşırıqdan və 1998-ci il martın 26-da verdiyi “Azərbaycanlıların soyqırımı haqqında” Fərmanı [3] ilə 31 Mart tarixinin Azərbaycanlıların soyqırımı günü elan edilməsindən sonra erməni siyasi strukturu tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımlarına dair tədqiqatlar geniş vüsət aldı. 1999-

cu il martın 30-da “Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanının icrasının ardıcıl və mütəşəkkil şəkildə həyata keçirilməsi ilə bağlı tədbirlər planı haqqında” sərəncamı ilə tədbirlər planı çərçivəsində soyqırımına dair 13 adda elmi-tədqiqat materialının hazırlanması nəzərdə tutulmuşdu [4]. Bu materialların hamısı qısa vaxtda çap edildi. Daha sonra ölkənin elmi və ali təhsil müəssisələrində, o cümlədən AMEA-nın elmi-tədqiqat institutlarında soyqırımların tədqiqatı ilə əlaqədar şöbələr yaradıldı və elmi araşdırmalar aparıldı. Bu araşdırmaların nəticəsi olaraq sonradan Azərbaycanın ayrı-ayrı bölgələrində (Bakı, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Lənkəran) erməni siyasi dairələri və hərbi birləşmələri tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı və etnik təmizləmələrə dair çoxlu sayda elmi əsərlər nəşr edildi [7]. Həm Bakıda, həm də Azərbaycanın başqa şəhərlərində (Quba, Şamaxı, Qusar, Lənkəran və s.) azərbaycanlıların soyqırımı ilə bağlı beynəlxalq və respublika əhəmiyyətli elmi konfranslar keçirildi və həmin konfransların mteriallları çap edildi [1; 2; 5; 6]. Nəticədə, Azərbaycanda soyqırımı məsələləri ilə fundamental məşğul olan ziyalılar yetişdi, ölkə və dünya ictimaiyyəti Azərbaycan xalqına qarşı yönəlmiş soyqırımı və etnik təmizləmə faktları ilə tanış oldular və erməni elmi ictimaiyyətinin erməni etnosunun soyqırıma məruz qalması ilə bağlı dezinformasiyalarına qarşı güclü mənbə və tarixşünaslıq bazası və elmi-tədqiqat materialları formalaşdı.

Beləliklə, Heydər Əliyevin tarixi tədqiqatlara dair tapşırıq və tövsiyyələri, “Azərbaycanlıların soyqırımı haqqında” Fərmanı, “Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanının icrasının ardıcıl və mütəşəkkil şəkildə həyata keçirilməsi ilə bağlı tədbirlər planı haqqında” Sərəncamı, 31 mart gününü Azərbaycanlıların soyqırımı günü elan edilməsi Azərbaycan və dünya kitabxanalarının, internet və elektron məkanının erməni siyasi dairələri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı və etnik təmizləmə siyasəti ilə əlaqədar fundamental elmi-tədqiqat əsərləri, elmi məqalələrin və tezislərin yer aldığı çap edilmiş elmi konfrans materialları və elmi jurnallarla zənginləşdirilməsinə təkan vermiş oldu. Bu istiqamətdə tədqiqatlar bu gün də “Qərbi Azərbaycan problemləri” kontekstində davam etdirilməkdədir. Soyqırımı problemi ilə bağlı Azərbaycan arxivlərində olan sənədlər geniş təhlil edildiyindən bundan sonrakı tədqiqatların daha çox xarici ölkə arxivlərinin mənbələri cəlb edilməklə həyata keçirilməsi daha məqsədəuyğun olardı.

**Ədəbiyyat**


1. “XX əsrdə Türk-müsəlman xalqına qarşı soyqırımları” IV beynəlxalq elmi konfrans, – Lənkəran: Turxan, – 22-27 aprel, – 2017.
2. “XX əsrdə Türk-müsəlman xalqına qarşı soyqırımları” V beynəlxalq elmi konfrans, – Qusar: Turxan, – 25-29 aprel, – 2018.
3. “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı: [Elektron resurs] / Azərbaycan Milli Kitabxanasının rəsmi veb-səhifəsi. – Bakı, 26 mart 1998-ci il. – URL: https://anl.az/soyqirim/pdf/ferman-26.03.1998.pdf
4. “Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanının icrasının ardıcıl və mütəşəkkil şəkildə həyata keçirilməsi ilə bağlı tədbirlər planı haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs] / Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Aktların vahid elektron bazası. – Bakı, 30 mart 1999-cu il. – URL: https://e-qanun.az/framework/5064
5. “Azərbaycan və Şərqi Anadoluda Türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)” II beynəlxalq elmi konfrans, – Quba: Turxan, – 9-11 aprel, – 2015.
6. “Azərbaycan və Şərqi Anadoluda Türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)” III beynəlxalq elmi konfrans, – Şamaxı: Turxan, 07-10 aprel, – 2016.
7. E-kitablar: [Elektron resurs] / AMEA A.A.Bakıxanov adına Taix və Etnologiya İnstitutunun rəsmi veb-səhifəsi. – Bakı, – URL: http://tarixinstitutu.az/books?page=12
8. *Hüseynova, L.* Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri (Müstəqillik dövrü) / L. Hüseynova. – Bakı: Təhsil, – 2011. – 216 s.